BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Humanitar elmlər seriyası 2014*

UOT 94 (479.24)

# VARTAŞEN (OGUZ) RAYONUNUN ƏHALİSİNİN MİLLİ TƏRKİBİ (1930-1999-cu İLLƏR)

**S.Z.QULİYEVA**
***Seidequliyeva@gmail.com***
***Bakı Dövlət Universiteti***

*Məqalədə statistik materiallar əsasında XX əsr boyu Vartaşen (Oğuz) rayonunun etnik tərkibi, xalqların sayının dəyişməsi və yerləşməsi araşdırılır. Mənbələr təsdiq edir ki, XX əsr ərzində rayonun əsas əhalisi azərbaycanlılar olmuşdur. Rayonda bəzi kəndlər xalqların say üstünlüyünə görə fərqlənirlər. Azərbaycanlılar, ləzgilər və ruslar əsasən kəndlərdə, udinlər və yəhudilərin hamısı şəhərdə məskunlaşıb.*

**Açar sözlər:**Vartaşen, Oğuz, əhali, demoqrafik göstəricilər

**Giriş.** “Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət proqramı”, 2004-2008-ci və 2009-2013-cü illəri əhatə edən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları, 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə əlaqədar irəli gələn vəzifələrin həyata keçirilməsi üçün məqsədli, kompleks elmi yanaşma və tədqiqatlara ehtiyac vardır. Azərbaycanın müasir demoqrafik durumunu və onun gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi, bu problemin kompleks şəkildə öyrənilməsi onun ayrı-ayrı aspektlərinin dərindən araşdırılmasını, regionlar üzrə tarixi-demoqrafik tədqiqatların aparılmasını tələb edir.

XX əsrdə Azərbaycanın şimal-qərbinin əhali problemləri, Azərbaycan tarixşünaslığında tədqiqata cəlb edilmədiyi üçün, aktual mövzudur. Bu baxımdan, Oğuz rayonunun əhalisinin öyrənilməsi, onun tarixi-demoqrafik xarakteristikasının (əhalinin say dinamikası, milli və sosial tərkibi) tədqiqi əhəmiyyətlidir. Bu məqalədə rayon yarandığı tarixdən – 1930-cu ildən əsrin sonuna qədər əhalinin milli tərkibinin say dinamikasını və məskunlaşmasını aydınlaşdırmaq nəzərdə tutulur.

Məlumdur ki, Oğuz rayonu[1] tarixən əhalisinin milli müxtəlifliyi ilə fərqlənib. Əsrlər boyu Oğuz rayonunda türklər, ləzgilər, udinlər, yəhudilər və digər xalqların nümayəndələri birgə yaşayıblar. Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalından sonra həyata keçirilən köçürmə siyasəti nəticəsində şimali Azərbaycana, həmçinin şimal-qərbi Azərbaycana slavyan xalqları və ermənilər köçürülür. Bununla da, həmin vaxtdan regionun milli-dini tərkibində dəyişikliklər qeydə alınır.

Əvvəllər Şəki xanlığının tərkibinə aid olan ərazi Rusiya imperiyasının həyata keçirdiyi inzibati-ərazi islahatları nəticəsində Nuxa qəzasının tərkibində olub. Belə idarəetmə quruluşu XX əsrin 30-cu illərinə qədər saxlanılıb. Azərbaycan SSR-in rayonlaşdırılması ilə əlaqədar 1930-cu il 30 avqust tarixli qərarı ilə Vartaşen rayonu ayrıca inzibati vahid kimi təşkil olunur [1, 127-130].

**1. Mövzunun tədqiqində istifadə olunan mənbələr.** Rayon əhalisinin 1930-1999-cu illərə aid milli tərkibini öyrənmək üçün müraciət etdiyimiz əsas mənbələr Ümumittifaq əhali siyahıyaalma materialları və 1999-cu ildə keçirilmiş Azərbaycanın müstəqillik illərinin ilk siyahıyaalma materiallarıdır. Bir sıra məlumatları dəqiqləşdirmək üçün rayon yaranandan əvvələ aid materiallara da nəzər salmaq vacibdir. Bu səbəbdən, 1921-ci ildə keçirilmiş Kənd təsərrüfatı siyahıyaalması və 1933-cü ildə nəşr edilmiş Azərbaycan Sosialist Şura Cümhuriyyətinin inzibati-ərazi bölgüsü müraciət etdiyimiz mənbələrə aiddir [2; 3; 4; 5; 6; 7; 8; 10; 11].

Əhali siyahıyaalma materiallarında göstərilən milli tərkib barədə bəzi nüansları qeyd etmək vacibdir. Mənbələrin müqayisəsindən məlum olur ki, Rusiya imperiyası dövründə milli tərkib qeydə alınarkən təhriflərə yol verilir, bütün xalqlara aid göstəricilər tam verilmirdi. Məsələn, milli tərkibə aid materiallarda ancaq üstünlük təşkil edən xalqlar göstərilir və ya yerli xristian əhali (xristian dinini qəbul etmiş albanlar, udinlər və digərləri; gəlmə ruslardan başqa) erməni və ya gürcü kimi qeydə alınırdı. 1921-ci il və 1933-cü ilə aid məlumatlar bütün yaşayış məntəqələri üzrə verilir. Növbəti illərə - sovet dövrünə aid siyahıyaalma materiallarında isə, demək olar ki, bütün xalqlar göstərilir, lakin kəndlər üzrə milli tərkib göstərilmir.

Cənubi Qafqazın əsas əhalisi olan türk-müsəlmanlar 1886-cı il materiallarında tatarlar, 1921-ci il materiallarında türk-azərbaycanlılar, 1933-cü il materiallarında türklər, Sovet dövründə və müstəqillik illərində keçirilən əhalinin siyahıyaalma materiallarında azərbaycanlılar kimi göstəriliblər. Bunun bir sıra səbəbləri vardır. Xüsusilə, Rusiya imperiyaya çevrildikdən sonra onun tərkibinə birləşdirilən ərazilərdə yaşayan türkləri Türkiyədə yaşayan türk əhalidən ayırmaq üçün tarixşünaslığa tyurki (тюрки) və turki (турки) anlayışları daxil edilir [12, 576-595]. Stalinin hakimiyyəti dövründə isə Azərbaycan Sovet Respublikasında və Cənubi Qafqazda yaşayan türk-

[1] Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 7 fevral tarixli qərarı ilə Vartaşen rayonunun adı dəyişdirilərək Oğuz adlandırılıb.

müsəlmanlara azərbaycanlılar deyilməyə başlanılır. Bundan başqa, biz belə hesab edirik ki, əslində, Azərbaycan respublikasının sərhədləri daxilində yaşayan bütün əhali azərbaycanlı hesab edilsə də, əhali siyahıyaalma materiallarında göstərilən azərbaycanlılar məhz türk-müsəlmanlardır.

**2. Milli tərkib.** Vartaşen rayonu inzibati-ərazi vahidi kimi təşkil edildikdən sonra rayon əhalisinin milli tərkibi barədə ilk məlumata 1933-cü il Azərbaycan Sovet Şura Cümhuriyyətinin inzibati-ərazi bölgüsündə rast gəlinir. Elmi dövriyyəyə ilk dəfə daxil edilən bu sənəddə Vartaşen rayonu əhalisinin kənd şuraları üzrə yerləşməsi, sayı, cins və milli tərkibi göstərilir. Bu məlumatlar əsasında hazırlanmış cədvəli nəzərdən keçirək:

Cədvəl 1

**Vartaşen rayonu üzrə əhalinin yerləşməsi (1933-cü il)**

| Kənd şuraları | Məskun yerlər | | cəmi, əhali | o cümlədən | | Əksəriyyət təşkil edən milliyyət |
|---|---|---|---|---|---|---|
| | | | | kişi | qadın | |
| Baş Daşaqıl | 1 | | 1300 | 684 | 616 | türklər-89,3% |
| Filfilli | 1 | Filfilli | 519 | 250 | 269 | ləzgi-95,8% |
| Muxas | | | 1646 | 872 | 774 | türklər-93,7% |
| | 2 | Buçaq | 661 | 357 | 304 | |
| | | Muxas | 985 | 515 | 470 | |
| Padar | | | 3407 | 1836 | 1571 | türklər-82,2% |
| | 9 | Aqlıq | 149 | 88 | 61 | |
| | | Dəymədərə | 343 | 177 | 166 | |
| | | Yaqublu | 134 | 69 | 65 | |
| | | Yemişanlı | 192 | 106 | 86 | |
| | | Padar | 956 | 555 | 401 | |
| | | Qarabaldır | 163 | 85 | 78 | |
| | | Tayıflı | 123 | 62 | 61 | |
| | | Vardanlı | 1204 | 615 | 589 | |
| | | Zərrab | 143 | 79 | 64 | |
| Qumlax | 6 | | 2143 | 1140 | 1003 | türklər-68,6%; ləzgilər-25,0% |
| | | Bayan | 485 | 243 | 242 | |
| | | Baş-Xalxal | 537 | 292 | 245 | |
| | | Ermənət | 363 | 196 | 167 | |
| | | Qumlax | 364 | 193 | 171 | |
| | | Şirvanlı | 256 | 131 | 125 | |
| | | Xalxal-qışlaq | 138 | 85 | 53 | |
| Sinçan | 5 | | 1635 | 843 | 792 | türklər-97,5% |
| | | Dəymədaqlı | 148 | 73 | 75 | |
| | | Mollalı | 299 | 155 | 144 | |
| | | Sincan | 607 | 305 | 302 | |
| | | Tərkeş | 262 | 132 | 130 | |
| | | Xaçmaz-qışlaq | 319 | 178 | 141 | |
| Söyütlü | 6 | | 1762 | 893 | 869 | ləzgilər-32,7%; rus-28,2 % |
| | | Bala-Söyütlü | 135 | 65 | 70 | |
| | | Böyük-Söyütlü | 557 | 267 | 290 | |
| | | Novo-Astraxanovqa | 179 | 94 | 85 | |
| | | Novo-Pavlovqa | 202 | 112 | 99 | |
| | | Qarabulaq | 579 | 308 | 271 | |
| | | Vladimirovqa | 110 | 47 | 63 | |
| Vartaşen | 5 | | 3837 | 1973 | 1874 | rus-41%; ermənilər-37,2% |
| | | Çalıt | 522 | 261 | 261 | |
| | | Cuhudlar | 720 | 367 | 353 | |
| | | Otmanlı | 23 | 12 | 11 | |
| | | Vartaşen | 2481 | 1281 | 1200 | |
| | | Vartaşen-qışlaq | 101 | 52 | 49 | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Xacmaz | 3 | | 4009 | 2141 | 1868 | türklər-99,1% |
| | | 1. Abdallı | 145 | 72 | 73 | |
| | | 2. Qazmalar | 157 | 93 | 64 | |
| | | 3. Xaçmaz | 3707 | 1976 | 1731 | |
| cəmisi rayonda | | | 20268 | 10632 | 9636 | |

** Türklər–azərbaycanlılar*

**Mənbə***:* Vartaşen rayonu. ASŞÇ inzibati bölünüşü. Məskun yerlərin rayonlar, kənt şüraları siyagısı. Bakı: Az.XTUİ, 1933, s. 89.

Məlumatlar bütün kənd şuralarının əksər əhalisinin türklər olduğunu göstərir. Say üstünlüyünə görə əksəriyyət təşkil edən digər xalq ləzgilərdir [8, 89].

Təəssüf ki, 1933-cü ildən 1959-cu ilə qədər rayon əhalisinin milli tərkibinə aid material əldə edə bilmirik. Bu müddətdən sonra əhalinin milli tərkibində baş verən dəyişiklikləri aydınlaşdırmaq üçün SSRİ-də keçirilən Ümumittifaq əhali siyahıyaalma materiallarına və 1999-cu ildə keçirilmiş Azərbaycanın müstəqillik illərinin ilk siyahıyaalma materiallarına müraciət edirik. 1959, 1970, 1979, 1989 və 1999-cu il əhali siyahıyaalma materialları əsasında tərtib etdiyimiz 2 saylı cədvələ nəzər salaq və rayon əhalisinin milli tərkibində baş verən dəyişiklikləri təhlil edək:

Cədvəl 2

**Vartaşen (Oğuz) rayonu əhalisinin milli tərkibi (seçmə)***

| | 1959[1] | 1970[2] | 1979[3] | 1989[4] | 1999[5] |
|---|---|---|---|---|---|
| Cəmi | 19656 | 27690 | 29958 | 31815 | 36488 |
| Azərbaycanlılar | 12844 | 19559 | 21282 | 23914 | 29735 |
| Ruslar | 1364 | 911 | 681 | 563 | 200 |
| Ermənilər | 2386 | 2788 | 2764 | 1868 | 5 |
| Ləzgilər | 2023 | 3189 | 3998 | 4378 | 5167 |
| Tatarlar | | 5 | 2 | 6 | 33 |
| Yəhudilər | 908 | 614 | 246 | 158 | 179 |
| Dağ yəhudiləri | | | 392 | 428 | |
| Udinlər | | 492 | 514 | 393 | 104 |
| Türklər | | | | | 1021 |

*Müxtəlif illərdə sayları 25 nəfərdən artıq olmayan avarlar, kürdlər, gürcülər, ukraynalılar və digər xalqların nümayəndələri cədvəldə göstərilməyib.

**Mənbə***:* 1. Распределение населения по национальности. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1959 года. ЦСУ Азерб.ССР при Совете Министров Азербайджанской ССР ДСП.

2. Итоги Всесоюзной переписи населения 1970 года по Азербайджанской ССР. Т.I, ч.II. Баку, Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР, 1980, с. 464-465.

3. Численность и национальный состав населения. Баку: Государственный Комитет Азерб.ССР по Статистике, 1988. с.28-29.

4. Распределение населения по национальности и родному языку. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1989 года. ЦСУ Азерб.ССР при Совете Министров Азербайджанской ССР. ДСП.

5. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. IV hissə. Bakı: Səda, 2000, s.33,49

Cədvəldən görünür ki, **1959**-cu ildə rayon əhalisinin 65%-ni azərbay-

canlılar, 12%-ni ermənilər, 10%-ni ləzgilər, 6,9%-ni ruslar və 4,6%-ni yəhudilər təşkil etmişdir. **1970**-ci il əhali siyahıyaalma materiallarına əsasən rayonun etnik tərkibində üstünlük təşkil edən xalqlar azərbaycanlılar (70%), ləzgilər (11,5%) və ermənilər (10,1%) olmuşdur. Ruslar əhalinin 3,2%-ni, yəhudilər 2,2%-ni, udinlər 1,7%-ni təşkil edib. **1979**-cu ildə rayon əhalisinin 71%-i azərbaycanlılar, 2,2%-i ruslar, 9,2%-i ermənilər, 13,3%-i ləzgilər, **1989**-cu ildə 75%-ni azərbaycanlılar, 13,7%-ni ləzgilər, 5,8%-ni ermənilər, 1,7%-ni ruslar, **1999**-cu ildə 81%-i azərbaycanlılar, 14%-i ləzgilər, 2,7%-i türklər, 0,5%-i ruslar təşkil edirdi [2; 3, 464-465; 4; 5; 6, 49].

Məlumdur ki, 1944-cü ildə Gürcüstandan Özbəkistana deportasiya edilmiş axıska türkləri 1992-ci ildə orada yaranan milli münaqişə nəticəsində Azərbaycana pənah gətirmişlər. Onların bir hissəsi Oğuz rayonunda məskunlaşıbdır. Axıska türkləri 1999-cu il əhali siyahıyaalma materiallarında rayonun milli tərkibində türklər kimi göstərilir.

Cədvəl 2-də göstərilən materiallar əsasında ayrı-ayrı xalqların say dinamikasını təhlil edək. 1959-cu ildə rayonda 1364 nəfər rus yaşayırdısa, 1989-cu ildə 563 nəfər, 1999-cu ildə 200 nəfər qalmışlar. Ermənilərin isə sayı 1959-cu ildə 2386 nəfər olduğu halda, 1999-cu ildə 5 nəfər qeydə alınıb. 1959-cu il üçün sayları 908 nəfər olan yəhdulərin də sayı əsrin sonuna azalıb 179 nəfər olmuşlar.

Qeyd etmək lazımdır ki, Azərbaycanın yerli əhalisi olan udinlərin sayı 1959-cu il əhalini siyahıyaalma materiallarında respublika üzrə 3202 nəfər göstərilir, lakin udinlərin əsas yaşadıqları Qutqaşen və Vartaşen rayonları üzrə əhalinin milli tərkibini verərkən onların hansı xalqa aid edildiyini aydınlaşdırmaq olmur. 1970-ci il əhalinin siyahıyaalınmasından başlayaraq siyahıyaalmalarda milli tərkib göstərilərkən udinlər özlərini udin kimi qeyd ediblər. 1970-ci ildə udinlərin sayları 492 nəfər göstərilir, onların sayı azalaraq 1999-cu ildə 104 nəfər qalmışlar.

Göründüyü kimi, rayonun milli tərkibində rusların, ermənilərin, yəhudilərin və udinlərin sayında azalma qeydə alınır. Bu səbəbdən də, əsrin sonunda əhalinin tərkibində faiz hesabı ilə azərbaycanlıların və ləzgilərin çəkisi artır. Qeyd edək ki, ləzgilər rayon əhalisinin etnik tərkibində üstünlük təşkil edən xalqlardan biridir. 1959-1999-cu illər arasında ləzgilərin sayı 2023 nəfərdən 5167 nəfərə çatmışdır.

Rusların, ermənilərin, yəhudilərin və udinlərin sayının azalması emiqrasiya, azərbaycanlıların və ləzgilərin sayının artımı isə təbii artımla əlaqədardır. XX əsrin sonunda baş verən ictimai-siyasi proseslər – SSRİ-nin dağılması, Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində yaranan müharibə əhalinin xaricə miqrasiyasına səbəb oldu. Bu miqrasiya rusların və digər slavyan xalqlarının, ermənilərin, yəhudilərin və udinlərin sayının azalmasına səbəb olur.

Rayonda yaşayan bəzi xalqların respublika əhalisinin milli tərkibində çəkisi də maraqlıdır. Rayon əhalisinin sayı az olsa da, region üzrə ermənilərin,

udinlərin və yəhudilərin əhalinin milli tərkibində faizi digər rayonlarla müqayisədə az deyil. Udinlərin, ermənilərin, yəhudilərin və ləzgilərin respublika əhalisinin milli tərkibində çəkisini müqayisə etmək üçün sovet - 1970 və müstəqillik - 1999-cu il əhali siyahıyaalma materiallarına nəzər salaq.

1970-ci il əhali siyahıyaalma materiallarından məlum olur ki, respublikada yaşayan udinlərin 9%-i, ləzgilərin 2%-i, ermənilərin 1%-i, yəhudilərin 1%-i Vartaşendə yaşayıb. Azərbaycanın Şimal Qərbində yəhudilərin yaşadığı əsas rayon Vartaşen olub. Burada yaşayan 164 nəfərin hamısı şəhərdə yaşayıb. Respublikada yaşayan 5492 nəfər udinin 86,1%-i Qəbələ (4734 nəfər; 4 nəfər şəhər, 4730 nəfər kənd), 9%-i Vartaşen (492 nəfər; 489 nəfər şəhər, 3 nəfər kənd) rayonunda yaşayıb [3, 456-483].

1999-cu il əhali siyahıyaalma materiallarına əsasən, respublikada yaşayan ləzgilərin 3%, udinlərin və yəhudilərin 2%-i bu rayonda yaşayıb. Udinlərin əsas məskunlaşdığı rayon qonşu Qəbələ rayonudur - 3962 nəfər; ləzgilərin əsas məskunlaşdıqları yaşayış məskənləri isə bunlardır: Bakı - 26145 nəfər, İsmayıllı - 7722 nəfər, Şəki - 7469 nəfər, Sumqayıt - 4402 nəfər [6, 33-55].

Qeyd etmək lazımdır ki, slavyan xalqları və ermənilər rayonun indiki ərazisinə XIX əsrdə Rusiya imperiyasının köçürmə siyasəti nəticəsində gəliblər. Gəlmə əhali arasında ermənilərin sayı daha çox olmuşdur. Vartaşen rayonu ermənilərin daha çox məskunlaşdıqları rayonlardan biri idi: 1959-cu ildə respublikada yaşayan 442089 nəfərin 2386 nəfəri, 1970-ci ildə 483520 nəfərin 2788 nəfəri, 1979-cu ildə 475486 nəfərin 2764 nəfəri bu rayonda yaşayırdı [2; 3; 4]. 1970-ci il üçün Azərbaycanın şimal-qərbinin 6 rayonunda ermənilərin sayını müqayisə etsək, görürük ki, onlar əsasən Vartaşen rayonunda yaşayıb: 2788 nəfərin 1.605 nəfəri şəhərdə, 1183 nəfəri kənddə yaşayıb.

Cədvəl 3

**Azərbaycanın şimal-qərb rayonları üzrə ermənilərin sayı (1970-ci il)**

| | Respublika üzrə | Şəki | Balakən | Vartaşen | Zaqatala | Qax | Qutqaşen |
|---|---|---|---|---|---|---|---|
| Ermənilər, cəmi | 483520 | 1759 | 189 | 2788 | 1038 | 96 | 704 |

**Mənbə:** Национальный состав населения по городам и районам республиканского подчинения. Итоги Всесоюзной переписи населения 1970 года по Азербайджанской ССР. Т.I, ч.II. Баку: Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР, 1980. s.456-483.

Apardığımız tədqiqat nəticəsində məlum olur ki, XX əsr ərzində rayonun əsas əhalisi azərbaycanlılar olmuşdur. Müstəqllik əldə ediləndə rayonun adı dəyişdirilərkən bu fakt nəzərə alınmışdır. Belə ki, rayonun indiki adı türk tayfalarından biri olan oğuzların adı ilə bağlıdır.

**3. Xalqların şəhər və kənd üzrə yerləşməsi.** Rayonda bəzi kəndlər xalqların say üstünlüyünə görə fərqlənirlər. Əsrin əvvəlinə aid materiallarda xalqların sayı kəndlər üzrə verilirdi [7; 8, 49]. Bu materiallara əsasən, deyə bilirik ki, 1921-ci ildə 31 kənddən 24 kənddə, 1933-cü ildə 37 kənddən 25-də türklər üstünlük təşkil ediblər (Bax, cədvəl 1). Filfilli kəndində ləzgilər və

**kürinlər**, Cuhudlar kəndində yəhudilər üstünlük təşkil edib. Vardanlı[1] və Vartaşendə isə müxtəlif xalqların nümayəndələri birgə yaşayıblar: Vardanlıda türklər[2], **kürinlər**, ermənilər; Vartaşendə yəhudilər, udinlər, türklər və ermənilər. Cucamış, Calut, Yenikənd, Məclis, Malıx, Zərrab, Top, Yaqublu, Covlan, Otmanlı kəndlərində isə əsasən ermənilər üstünlük təşkil ediblər. Rusiya imperiyasının köçürmə siyasəti ilə əlaqədar Novo-Pavlovqa, Vladimorovqa və Novo-Astraxanovqa kəndlərində slavyanlar məskunlaşmışlar. Tədricən slavyan xalqları buradan köçsələr də, kəndlərin adı olduğu kimi qalıb.

1969-cu ildə Vartaşenə şəhər statusu verildikdən sonra bu məskunlaşmada ciddi dəyişiklik müşahidə olunmur. Bunun üçün XX əsrin əvvəlinə aid yuxarıdakı məlumatı əsrin sonuna aid 1989-cu il əhalini siyahıyaalma materialları ilə müqayisə edək. Həmin materiallar əsasında tərtib etdiyimiz cədvəldə xalqların şəhər və kəndlər üzrə yerləşməsini göstəririk:

Cədvəl 4

**Vartaşen (Oğuz) rayonunda xalqların şəhər və kənd üzrə yerləşməsi (1989)**

| | Cəmi | Şəhər | | | Kənd | | |
|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | kişi | qadın | Cəmi | kişi | qadın |
| Bütün əhali | 31815 | 5921 | 2879 | 3042 | 25894 | 12768 | 13126 |
| Azərbaycanlılar | 23914 | 3273 | 1640 | 719 | 20641 | 10230 | 10411 |
| Ruslar | 563 | 44 | 15 | 29 | 219 | 256 | 263 |
| Ukraynalılar | 18 | 8 | 2 | 6 | 10 | 4 | 6 |
| Beloruslar | 17 | 12 | 9 | 3 | 5 | 2 | 3 |
| Gürcülər | 11 | 6 | 1 | 5 | 5 | 4 | 1 |
| Ermənilər | 1868 | 1143 | 504 | 639 | 725 | 353 | 372 |
| Avarlar | 10 | 2 | 2 | - | 8 | 7 | 1 |
| Ləzgilər | 4378 | 444 | 231 | 213 | 3934 | 1896 | 2038 |
| Tatarlar | 6 | 2 | 1 | 1 | 4 | - | 4 |
| Yəhudilər | 158 | 157 | 79 | 78 | 1 | 1 | - |
| Dağ yəhudiləri | 428 | 428 | 199 | 229 | - | - | - |
| Udinlər | 393 | 390 | 189 | 201 | 3 | - | 3 |
| Kürdlər | 25 | - | - | - | 25 | 11 | 14 |
| Digər millətlər | 25 | 12 | 7 | 5 | 13 | 4 | 9 |
| Milliyyəti göstərilməyib | 1 | - | - | - | 1 | - | 1 |

**Mənbə***:* Распределение населения по национальности и родному языку. Всесоюзная перепись населения 1989 года. ЦСУ Азерб.ССР при Совете Министров Азербайджанской ССР.

Cədvəldən görünür ki, azərbaycanlılar, ləzgilər və ruslar əsasən kəndlərdə, yəhudilər, udinlər və ermənilər isə şəhərdə məskunlaşıblar. Yəni əsrin əvvəli ilə müqayisədə Vartaşen və Vardanlı kəndlərində əhalinin milli tərkibində ciddi dəyişiklik müşahidə olunmur.

Rayonda yaşayan müxtəlif xalqların vahid xalqın nümayəndəsi olduğunu göstərən faktlardan biri ev təsərrüfatlarının milli tərkibidir. Azərbaycanın

[1] Azərbaycan SSR Ali Sovetinin 1991-ci il 7 fevral tarixli qərarı ilə Vardanlı kəndinin adı dəyişdirilərək Kərimli adlandırılıb.

[2] Azərbaycanlılar 1933-cü il materiallarında türklər kimi göstəriliblər.

müstəqillik illərində keçirilən ilk siyahıyaalma zamanı ev təsərrüfatlarının milli tərkibə görə bölgüsü aparılır. 1999-cu il siyahıyaalma materiallarında bu barədə maraqlı faktlar üzə çıxır. Belə ki, rayon üzrə 7590 ev təsərrüfatından (üzvlərinin sayı: 36488 nəfər) 6884 təsərrüfatın üzvləri eyni xalqın nümayəndələri (32712 nəfər), 706 təsərrüfat isə müxtəlif xalqlara mənsubdur (3776 nəfər). Qeyd edək ki, bu materiallarda təsərrüfatların ailə üzvlərinin sayı da verilir. Məlumatdan görünür ki, tatarlar (7,3 nəfər), türklər (5,9 nəfər), ləzgilər (4,8 nəfər) və azərbaycanlılara (4,8 nəfər) aid təsərrüfatlarda ailə üzvlərinin sayı digər xalqlara aid təsərrüfatlardan daha çoxdur [9, 117]. Buna səbəb həmin xalqlar arasında doğumun yüksək olmasıdır.

**4. Əhalinin istifadə etdiyi dillərə görə bölgüsü.** Milli tərkibə və əhalinin istifadə etdiyi dillərə görə vəziyyətini rayon üzrə təhlil etdikdə məlum olur ki, əhali məişətdə, əsasən, öz xalqının dilindən istifadəyə üstünlük verir. Bu cəhəti 1959 və 1989-cu il əhali siyahıyaalma materialları əsasında aydın görürük. Əhalinin SSRİ-nin digər xalqlarının dilindən istifadə vəziyyətinə görə bölgüsünə nəzər saldıqda 1959-cu il üçün 19656 nəfərdən cəmi 333 nəfər digər dil kimi rus dilindən, 267 nəfər Azərbaycan dilindən, 32 nəfər isə erməni dilindən, 1989-cu il üçün 31815 nəfərdən 302 nəfər başqa dil kimi Azərbaycan dilindən, 239 nəfər rus dilindən istifadə edib [10; 11].

Ümumiyyətlə, şəhər əhalisinin milli tərkibi müxtəlif olduğu üçün burada yaşayan əhali ana dilindən əlavə ikinci dildən də istifadə edir. Kənddə yaşayan əhali əsasən öz ana dilindən istifadə edir. Məsələn, 1989-cu il üçün Vartaşen şəhərində yaşayan 5921 nəfərin 5441 nəfəri öz ana dilində, 227 nəfəri rus dilində (bu saya ruslar aid deyil), 239 nəfəri Azərbaycan dilində (bu saya azərbaycanlılar aid deyil) danışır. Əsasən, şəhərdə yaşayan 444 nəfər ləzginin 153 nəfəri Azərbaycan dilindən istifadə edir. Kənddə isə 25894 nəfər əhalinin 25814 nəfəri ana dilində, 63 nəfəri Azərbaycan dilində (bu saya azərbaycanlılar aid deyil) danışır. Bu xalqlar arasında üstünlük ləzgilərə aiddir: 3934 nəfərdən 3871 nəfəri ana dilində, 62 nəfəri Azərbaycan dilində danışır [11].

Bu rəqəmlərdən aydın olur ki, rayon əhalisinin həm Sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində əsas istifadə etdiyi dil ana dili, ikinci dil isə Azərbaycan və ya rus dili olmuşdur.

**Yekun.** Beləliklə, əhali siyahıyaalma materialları əsasında rayon əhalisinin milli tərkibinin say dinamikasındakı dəyişiklikləri, ayrı-ayrı xalqların rayon əhalisinin tərkibində çəkisini və onların yerləşməsini araşdıraraq, yekununda aşağıdakı nəticələri qeyd edirik:

- XX əsr boyu rayonun etnik tərkibində azərbaycanlılar üstünlük təşkil etmişlər;
- rayonda bəzi kəndlər xalqların say üstünlüyünə görə fərqlənirlər;
- azərbaycanlıların, ləzgilərin və rusların əksəriyyəti kənddə, yəhudilər və udinlərin hamısı, ermənilərin əksəriyyəti şəhərdə məskunlaşmışlar;
- rayonda yaşayan rusların, ermənilərin, yəhudilərin və udinlərin sayında XX əsrin sonunda azalma qeydə alınır;

- həm Sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində müxtəlif xalqların nümayəndələrinin məişətdə istifadə etdiyi əsas dil ana dili, ikinci dil isə Azərbaycan və ya rus dili olmuşdur;

- rayonun iri yaşayış məskənlərində daha çox xalqların nümayəndəsi yaşayır.

Bütün bu göstəricilər onu sübut edir ki, rayonda müxtəlif xalqların nümayəndələrinin birgə qarşılıqlı anlaşma şəraitində yaşamaq ənənəsi mövcuddur. Bu ənənə dövlətin və rayonun sosial-iqtisadi inkişafı üçün münasib imkanlar yaradır.

**ƏDƏBİYYAT**

1. Quliyeva S. Oğuz rayonunun inzibati-ərazi bölgüsü və əhalinin yerləşməsi // Bakı Universitetinin xəbərləri. Bakı: BDU, 2013, s.126-133.
2. Распределение населения по национальности. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1959 года. ЦСУ Азерб. ССР при Совете Министров Азербайджанской ССР ДСП.
3. Национальный состав населения по городам и районам республиканского подчинения. Таблица 64. Итоги Всесоюзной переписи населения 1970 года по Азербайджанской ССР. Том I, часть II. Баку, 1980. Центральное статистическое управление при Совете Министров Азербайджанской ССР, 552 с.
4. Численность и национальный состав населения. Баку, Государственный Комитет Азерб. ССР по Статистике, 1988, 48 с.
5. Распределение населения по национальности и родному языку. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1989 года. ЦСУ Азерб.ССР при Совете Министров Азербайджанской ССР. ДСП.
6. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. IV hissə. Bakı: Səda, 2000, 582 s.
7. Азербайджанская сельскохозяйственная перепись 1921 года. Стр.22-23, 32-33, 42-43.
8. ASŞÇ inzibati bölünüşü. Məskun yerlərin rayonlar və kənd şuraları siyahısı. Bakı: Az.XTUİ, 1933.
9. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması. 1999-cu il. VIII hissə. Bakı: Səda, 2000, 660 s.
10. Распределение населения по родному языку. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1959 года. ЦСУ Азерб. ССР при Совете Министров Азербайджанской ССР. ДСП.
11. Распределение населения по родному языку. Городское и сельское население. Оба пола. Всесоюзная перепись населения 1989 года. ЦСУ Азерб.ССР при Совете Министров Азербайджанской ССР. ДСП.
12. Бартольд В.В. Работы по истории и филологии тюрских и монгольских народов. М.: Вост. лит., 2002, 954 с.

## НАЦИОНАЛЬНЫЙ СОСТАВ НАСЕЛЕНИЯ ВАРТАШЕНСКОГО (ОГУЗСКОГО) РАЙОНА (1930-1999 гг.)

**С.З.ГУЛИЕВА**

**РЕЗЮМЕ**

В статье на основе статистических материалов о населении исследован этнический состав, размещение и изменение численного состава национальностей Варташенского (Огузского) района. Источники подтверждают, что основной Национальностью района были азербайджанцы. Некоторые населенные пункты отличаются по своему национальному составу. Азербайджанцы, лезгины и русские проживали, в основном, в сельской местности, удины и евреи – в городе.

**Ключевые слова:** Варташен, Огуз, население, демографические показатели

## ETHNIC STRUCTURE OF THE PEOPLES OF VARTASHEN (OGHUZ) REGION (1930-1999)

**S.Z.GULIYEVA**

**SUMMARY**

The article studies the placement and change of the number of peoples, as well as the ethnic structure of the region within the XX century on the basis of the statistical materials. The sources confirm that the main population of the region within the XX century were Azerbaijanis. Several villages are distinguished for their national content. Azerbaijanis, Lezghis and Russians settled in the rural areas, whereas Udins and Jews settled in the.

**Key words:** Vartashen, Oghuz, population, demographic indicators